# Ehtiyatda olan kapitan Əhəd İsmayılovun döyüş gündəliyindən

(Əvvəli 2-ci səhifədə).

1997-ci ildə milli ordudan tərxis olunduqdan sonra döyüş xatirələrimi yazmaq fikrinə düşdüm. Əleyhdarlarımızın dediklərinə, şayiələrə, torpaqlarımızın 20 faizi işğal olunmasına baxmayaraq 1990-cı illərin əvvəllərindən formalaşmağa başlayan milli ordumuzun zabit və əsgərləri həmişə yüksək döyüş ruhuna malik olmuşlar. Doğrudur, ilk dövrlərdə milli orduda peşəkar zabitlərin, gizirlərin sayı olduqca az idi. Buna baxmayaraq ordumuz düşmənlə qeyri-bərabər döyüşlərdə misli görünməmiş igidlik nümunəsi nümayiş etdirirdi. Mən qeyri-bərabər ona görə deyirəm ki, yağı düşmənimiz olan ermənilər döyüşlərdə rus silahı və muzdlu peşəkar döyüşçülərə, Amerkan və dünya erməni diasporu maliyyəsinə arxalanırdılar. Bizim yeganə güvənc yerimiz olan Türkiyə isə NATO üzvü olduğuna görə ermənipərəst beynəlxalq güc mərkəzlərinin siyasəti ziddinə gedə bilməzdi. Bir sözlə yeni yaranan, xaricdən heç bir dəstək olmayan milli ordumuz bu şəraitdə belə ayrı-ayrı döyüş epizodlarında ağlasığmaz igidlik göstərirdi. Fikirləşdim ki, bütün bunları gənclərimiz, yeniyetmələrimiz bilməlidir. Onlar düşünməsinlər ki, torpaqlarımız elə belə erməni quldurları tərəfindən çox asanlıqla işğal olunub. Xeyir, biz bu döyüşlərdə 20 mindən artıq igid oğullarımızı və qızlarımızı itirmişik, onların əksəriyyətinin döyüş yolu igidlik mərdlik, dözümlülük, vətənə sədaqət yoludur. Beləliklə əziz gənclər, mənim və döyüş yoldaşlarımın (onların çoxu vətən uğrunda son damla qanına qədər vuruşaraq şəhid olublar) iştirak etdiyi döyüşlərdən bir neçə epizodu sizə çatdırmaq istəyirəm. Düşünürəm ki, bu sizin üçün və bütün oxucularımız üçün maraqlı olacaq. Eyni zamanda tezliklə ordumuz tərəfindən torpaqlarımız, yağı düşməndən təmizlənərkən bizim müsbət təcrübələrimiz lazımlı ola bilər.



...1994-cü ilin yanvarın 10-da mənim qulluq etdiyim müstəqil Azərbaycanın ilk hərbi birləşməsi olan 701-ci briqadaya Kəlbəcər istiqamətində növbəti əməliyyata başlamaq əmri verildi. Bu döyüş zonasında əsas vəzifə birinci taburla mənim siyasi iş üzrə komandir müavini olduğum üçüncü taburun üzərinə düşürdü. Ayın 13-də bizim taburlarımız Kəlbəcər ərazisindəki Yol evi deyilən tərəfdən Yanşaq və Susurluq kəndləri istiqamətində hərəkətə başladı. Bizi qarşıda qarlı-boranlı, keçilməz sıldırımlı dağ yamacları gözləyirdi. 25—30 dərəcə şaxtada keçilməz, qarlı sıldırım qayalarla hərəkət etmək böyük əzmkarlıq,dözüm və doğma torpağa hədsiz məhəbbət tələb edirdi. Doğma torpaqlarımızı azad edəcəyimizin bizdə yaratdığı ruh yüksəkliyi bütün çətinlikləri dəf etməkdə əsas yardımçımız idi. Nə qədər çətin olsa da biz 8 saatlıq qarlı, çovğunlu yolları arxada qoyaraq səhərə yaxın Yanşaq yüksəkliyində idik. Döyüşdə 40 əsgəri idarə etmək tabur komandiri müavini kimi mənə həvalə olunmuşdu. Düşmən haqqında lazımi məlumat aldıqdan sonra səhər tezdən Yanşaq yüksəkliyindən ermənilərin Yanşaq kəndindəki mövqelərini avtomatlardan, pulemyotlardan və qumbaraatanlardan atəşə tutduq. Keçilməz qarlı, boranlı,- şaxtalı dağları, qayaları qısa müddətdə keçərək burada mövqe tutmağımız erməniləri çaş-baş salmışdı. Ermənilər mövqelərimizi dəqiq bilmədiklərindən yüksəkliyin bir neçə nöqtəsinə gözəyarı artileriya zərbəsi endirdilər. Xoşbəxtlikdən itkisiz ötüşdük. Axşamtərəfi ermənilər tərəfindən atəş demək olar ki, bütünlüklə kəsildi. Yəqin ki, ermənilər bizim mövqeyimizin əlverişli olduğunu bilərək və həm də çoxlu itki verdiklərindən Yanşaq kəndini tərk etmişdilər. Səhəri hava işıqlaşan kimi biz bir neçə istiqamətdən kəndə daxil olduq. Düşündüyümüz kimi idi. Ermənilər kənddən qaçmışdılar. Yanşaq kəndi bizim əlimizdə idi İrəlidə isə neçə-neçə azad olunası kəndlərimiz, qəsəbəlrimiz, şəhərlərimiz vardı...

(Ardı var).

## Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində

### Maraqlı sənət nümunələri

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Maraqlı sənət nümunələri" adlı geniş sərgi təşkil olunmuşdur. Sərgidə muzeyin ekspozisiyasında nümayiş olunan və diqqət çəkən, maraqlı eksponatlar bir yerdə toplanılmışdır. Antik dövrün nümunəsi olan südsüzənlər, kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuş su, süd qabları, tikinti materialları, VIII əsrə aid bitkilərdən dərman hazırlamaq üçün qablar, heyvan sümüyündən hazırlanmış üzüklər, düymələr, gildən tütəklər, qəlyanlar, möhürlənmiş şirli saxsı boşqablar, kaşılar, su boruları, müxtəlif formalı çıraqlar (stolüstü, asma, əlçıraqları və s.), üzəri dəmirdən şəbəkə üsulu ilə işlənmiş şüşə su qabı və s. kimi eksponatlar qədimliyi ilə yanaşı, həddindən artıq maraqlı, diqqətçəkicidir.

Azərbaycanımızın qədim sənət nümunələri olan bu eksponatlar tariximizin yadigarları, gələcək nəsillərimizə əmanətdir. Qəbələ sakinlərini, bir sözlə hər kəsi bu sərgini seyr etməyə dəvət edirik.

### XIX əsrin orijinal nümunələri

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında XIX əsrin orjinal nümunələri çoxluq təşkil edir. Bunların içərisində qadınların hazırladıqları pərdə başlıqları, Quran örtükləri, heybələr, xurcunlar, məfrəşlər, kəmərlər, qolçaqlar, pul kisələri və s. xüsusi naxışlar vasitəsilə bəzədilmiş və bu gün də zövqləri oxşamaqdadır. Bunların içərində qayçı qabı, pul kisəsini xüsusi olaraq qeyd etmək istərdim. Üzəri milli ornamentlərlə işlənmiş nümunələr həmin dövrün canlı şahidi olmaqla yanaşı indiki zamanımızda qədim tarixə çevrilmişdir.

Böyük, yüksək zövqlə işlənmiş bu sənət nümunələrinə baxan hər bir qadın tamaşaçımız diqqət və marağını gizlədə bilmir və bütün bunları öz əl işlərində sınaqdan keçirmək istəyir. Etnoqrafiya bölməsində yer alan bu tarixi yadigarlar göz bəbəyi kimi qorunmaqdadır. Muzeyimizin qonağı olan hər bir tamaşaçı dilindən, dinindən asılı olmayaraq bu bölmədə xeyli dayanır. Bəli! Azərbaycan qədim tarixə malik olduğu kimi eyni zamanda yaradıcı qabiliyyətli, əməksevər, zəhmətkeş anaların məkanıdır.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mədəniyyət və Turizm Nazirliyi strukturunun təkmilləşdirilməsi haqqında sərəncam imzalamışdır

Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyev mart ayının 19-da respublika Mədəniyyət və Turizm Nazirliyi strukturunun təkmilləşdirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin bazasında Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi yaradılmışdır.

Sərəncamla Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ayrı-ayrı rayon mədəniyyət şöbələrinin bazasında 15 regional mədəniyyət və turizm idarəsi yaradılmışdır. O cümlədən İsmayıllı, Ağsu, Şamaxı, Qobustan Qəbələ rayon mədəniyyət və turizm şöbələri bazasında İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsi yaradılmışdır.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin regional idarələrinin abidə mühafizəçiləri ştatları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilmişdir.

Sərəncamdan irəli gələn məsələlərin həlli üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə və Maliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilmişdir.

## Avropa və Asiyanı daha sıx birləşdirən dəmir yolu

Şərq-Qərb nəqliyyat dəhlizi layihəsi qitələri birləşdirən mühüm bir nəqliyyat dəhlizi layihəsidir. Bu layihənin həyata keçirilməsi Cənub-Şərqi Asiyadan Avropaya yük daşınmasını xeyli asanlaşdıracaqdır.

Layihənin gerçəkləşməsində Azərbaycan və Türkiyə birgə iştirak edirlər. İlin sonuna tamamlanması gözlənilən Bakı—Tbilisi—Qars (BTQ) dəmir yolu İpək Yolu dəhlizinin inkişafına yeni imkanlar açacaq.

Xatırladaq ki, Azərbaycan öz əlverişli coğrafi mövqeyinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır. Bu, ölkəmizə Avrasiya məkanında aparıcı rola malik Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində önəmli yer tutmağa imkan verir. Mart ayının 15-də Ankarada keçirilən Azərbaycan—Türkiyə Yüksək Səviyyəli strateji Əməkdaşlıq Şurasının beşinci iclasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi bəyanatda deyilir: «Bakı—Tbilisi—Qars dəmir yolu layihəsi də nəqliyyat sahəsindəki mühüm layihəmizdir. Londondan Pekinə qədər dəmir yolu nəqliyyatını mümkün edəcək layihənin, inşallah, dekabrda birlikdə açılışını edəcəyik. Beləliklə də bu nəhəng layihə açılışı ilə dünyaya önəmli bir mesaj olacaqdır».

**«Qəbələ».**

## Doğma ölkəmizdə

### Ağcabədidə yun fabrikinin fəaliyyəti bərpa olunub

Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində respublika Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri uğurla icra edilir. Aqrar sektorun senaye təməli üzərinə keçirilməsi sahəsində ölkədə gerçək bir nümunəyə çevrilmiş Agcabədi rayonunda yunun ilkin emalı fabriki fəaliyyətə başlamışdır. İstehsal gücü sutka ərzində 14 ton, ildə isə 5 min tona yaxın olan fabrikdə ilk mərhələdə 30 nəfər işlə təmin olunmuşdur. Fabrik tam gücü ilə işə salındıqda işçilərin sayı 75 nəfərə çatdırılıcağı gözlənilir.

### Yol-nəqliyyat hadisələrinin sayı azalır

2015-ci ildə ölkənin avtomobil yollarında 2220 yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr nəticəsində 3159 nəfər zərər çəkib. 2014-cü ilə nisbətən hadisələrin sayı 15.7, zərərçəkənlərin sayı isə 16,9 faiz azalmışdır. Zərərçəkənlərin 2265 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almış, 894 nəfəri həlak olmuşdur.

Dövlət Statistika Komitəsinin verldiyi məlumata görə qəzaların əsas hissəsi (1934--ü) yaşayış məntəqələrində baş vermiş, nəticədə 2710 nəfər zərər çəkmiş, onlardan 587 nəfəri həlak olmuş, 2123 nəfəri isə yaralanmışdır.

Yol nəqliyyat hadisələrinin 41,6 faizi gündüz, 38 faizi gecə, 18,6 faizi toran vaxtı baş vermişdir. Hadisələrin 30,2 faizi şənbə və bazar günlərinə təsadüf etmişdir. Sərxoş sürücülər tərəfindən 55 hadisə baş vermiş, 97 nəfəp zərər çəkmişdir. Bu hadisələin 92,7 faizi minik avtomobillərinn sürücüləri tərəfindən törədillmişdir.

**N. ATAKİŞİYEV.**